

*“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.”*

Heydər Əliyev

# XIZI


Qəzet 1990-cı ildən çıxır.
№ 1 (183) 307
May 2023-cü il
Xüsusi buraxılış

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti


# HEYDƏR ƏLİYEV - 100



*“...Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.”*

*“...Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son 10 ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib.”*

*“...Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”*

*HEYDƏR ƏLİYEV,*
*Ümummilli Lider*

**Müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin təntənəsidir**
Səh. 2-də

**Mayın 10-da Xızı rayonunda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Sən əbədi zirvəsən!” adlı yubiley tədbiri keçirilmişdir**
Səh. 5-də

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ağacəkmə aksiyası keçirilmişdir**
Səh. 6-da

**“Ulu Öndər Heydər Əliyevin irsi milli sərvətimizdir” adlı tədbir keçirilib**
Səh. 7-də

# Müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin təntənəsidir

***Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş, çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.***

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olub.

XX yüzilliyin 60-cı illərində Azərbaycanda durğunluq hökm sürürdü, respublika iqtisadi göstəricilərinə görə ittifaq miqyasında sonuncu yerlərdən birində idi. Bu acınacaqlı vəziyyətə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra son qoyulmasına başlandı.

1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi daxil oldu. Bu illəri əhatə edən Ulu Öndərin Azərbaycana rəhbərliyinin birinci dövründə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış, əsaslı dəyişikliklər baş vermişdir. Onun qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamız sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük irəliləyişə nail olmuşdur. Belə ki, Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verildi, 630 min yeni iş yeri açıldı, sənaye istehsalı 2,7 dəfə, tələbat mallarının istehsalı 3 dəfə, kənd təsərrüfatı istehsalı 2,7 dəfə, taxıl, pambıq, üzüm, ipək, tərəvəz, tütün, bostançılıq məhsulları istehsalı sahəsində məhsuldarlıq 1,8 - 2,6 dəfə artdı, heyvandarlıqda artım isə 2,7 dəfə oldu. Taxıl istehsalı 573,9 min tondan 1 milyon 211,3 min tona, üzüm istehsalı 272 min tondan 1 milyon 725,4 min tona, pambıq istehsalı 299,4 min tondan 831,2 min tona, meyvə-tərəvəz istehsalı 410 min tondan 850 min tona yüksəldi. Neft hasilatı 2,8 dəfə, maşınqayırma və metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artdı. Sənayedə əmək məhsuldarlığı 1,7 dəfə yüksəldi, 4400 yeni maşın, cihaz, avadanlıq və digər məmulatlar istehsal olundu ki, bunlardan da 400-ü keçmiş SSRİ-də ilk dəfə istehsal edilirdi. 1056 adda mühüm sənaye məhsulu buraxıldı.

Əgər 1969-cu ilədək olan 100 il ərzində Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə - cəmi 13 il ərzində onların sayı 1048-ə çatdırıldı. 1971-ci il martın 28-də Azərbaycanın neft hasilatı tarixində 1 milyardıncı ton "qara qızıl" çıxarıldı.

1970-ci illərin sonunda Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxdı. Ulu Öndər xalqın yaradıcılıq enerjisini vahid məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində gələcəyə hesablanmış qətiyyətli addımlar atır, mühüm qərarlar qəbul edirdi.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Məhz bunun sayəsində bu illərdə Ümummilli Liderin milli-mədəni inkişaf və tarixi yaddaşımızın bərpası istiqamətində gördüyü misilsiz işlər xalqımızda milli ruhun canlanmasını, özünüdərki və soykökə qayıdışı təmin etdi, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşları qoyuldu, azadlıq və müstəqillik duyğuları milli düşüncədə üstünlük təşkil etməyə başladı.

Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, Ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, sivilizasiyaların qovşağında Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar kimi tanıdılması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələridir.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə görkəmli söz ustalarının, alim və mütəfəkkirlərin, digər klassiklərimizin, eləcə də mədəniyyət və incəsənət xadimlərinin yubileyləri geniş miqyasda keçirildi. 1979-cu ildə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 600 illik yubileyinin UNESCO səviyyəsində keçirilməsi böyük ədəbi-mədəni hadisəyə çevrildi.



Repressiyaya məruz qalaraq 1937-ci ildə Sibirə sürgün olunmuş görkəmli ziyalı və dramaturq Hüseyn Cavidin nəşini 1981-ci ildə uzaq Sibirdən Azərbaycana gətirmək üçün apardığı mübarizə də Ulu Öndərin milli irsə ehtiramla yanaşan, heç bir siyasi riskdən çəkinməyən şəxsiyyət olduğunun təsdiqidir.

Bakıda Nəriman Nərimanovun (1972), Mehdi Hüseynzadənin (1973), İmadəddin Nəsiminin (1980) və Cəfər Cabbarlının (1982) əzəmətli abidələri, Göyçə mahalının Ağkilsə kəndində Aşıq Ələsgərin qəbirüstü abidəsi, Naxçıvan şəhərində Əcəmi Naxçıvaninin büstü, Şuşa şəhərində Xurşidbanu Natəvanın büstü və Molla Pənah Vaqifin məqbərəsi ucaldıldı.

Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş tarixi filmlər ("Nəsimi", 1974; "Dədə Qorqud", 1976; "Babək", 1979), müasir mövzularda və sənətkarlıq baxımından diqqətəlayiq filmlər çəkildi. Bu dövrdə çəkilən bir çox filmlər Dövlət mükafatına layiq görüldü.

Ümummilli Lider Heydər Əliyev respublikaya birinci rəhbərliyi dövründə xalqda milli özünüdərk hissini gücləndirə, milli kimliyi, düşüncə sistemi barədə dolğun təsəvvür formalaşdıra bildi. Həmin illərdə milli-mənəvi dəyərlərə nihilist baxış tədricən aradan qalxdı, klassik ənənə ilə müasir ədəbi irs arasında yaranan möhkəm mənəvi-ideoloji körpü milli düşüncənin düzgün məcraya yönəldilməsinə səbəb oldu. Heydər Əliyevin respublikaya rəhbərliyinin bütün fəlsəfəsi xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanışı məramına hesablanmışdı. Bu hədəfə nail olmaq üçün Heydər Əliyev rejimin ideoloji repressiya maşınının azərbaycançılıq məfkurəsini boğmasına imkan verməmiş, milli məfkurə və düşüncə sahibi olan ziyalıları qorumuşdur.

*"...Mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam."*

***HEYDƏR ƏLİYEV,***
***Ümummilli lider***

Heydər Əliyevin azərbaycançılıq ideologiyası sayəsində xalqımızın, o cümlədən soydaşlarımızın birlik və həmrəyliyinə nail olundu. Bu ideyanın əsas qayəsini Azərbaycan dilinə həqiqi dövlət dili statusunun qazandırılması, dilimizin qorunmasına və inkişafına yüksək diqqət göstərilməsi təşkil edirdi. Ulu Öndər Ana dilini milli özünüdərk yolunda ən mühüm amillərdən biri kimi dəyərləndirir, bu istiqamətdə cəsarətli və uzaqgörən addımlar atırdı.

70-ci illərin ortalarından başlayaraq SSRİ-ni təşkil edən respublikaların ictimai-siyasi həyatında dil məsələsi yenidən gündəmə gətirildi. SSRİ Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da gücləndirildi. Belə bir şəraitdə ana dili məsələsinin təbliği ilə məşğul olmaq cəsarət tələb edirdi. 30-cu illərdə dil məsələsini qabardanlar Sibirə sürgün olunurdu. Hətta milli respublikaların rəhbərləri də ana dili məsələsini gündəmə gətirməkdə aciz idilər. Bütün bunlara baxmayaraq, o vaxt Azərbaycan Respublikasının rəhbəri olan Ulu Öndər Heydər Əliyev dil məsələsində öz mövqeyini çox cəsarətlə, qətiyyətlə bildirmişdir. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Heydər Əliyevin Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsi olaraq, 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Azərbaycandilli məktəbin, maarifin inkişafına diqqət artırıldı, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edildi, ana dilində təhsilə üstünlük verildi, azərbaycandilli mətbuatın inkişafı təmin olundu, Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş ardıcıllıqla araşdırıldı, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları nəşr edildi, Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutu yaradıldı.

Heydər Əliyevin fəaliyyətinin təhlili göstərir ki, Ulu Öndər sanki gələcəyi görür, Azərbaycanın gələcək müstəqilliyi üçün hələ sovet dövründə mütəmadi iş aparırdı. Bu ideyanın əsasında, ilk növbədə, yüksək ixtisaslı milli kadr potensialının yaradılması dayanırdı. 1969-1982-ci illərdə 770-ə qədər məktəb binası istifadəyə verilmiş, respublikada ali məktəblərin sayı 12-dən 17-yə, burada təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılmışdı. Keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəblərində respublikamızda ən çox ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 17 minədək azərbaycanlı gəncin təhsil alması təmin olundu.

Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələnə qədər respublikamızdan kənara hər il 47 nəfər ali təhsil almağa göndərilirdi. Göndərilən 47 nəfərin də az bir hissəsini azərbaycanlılar təşkil edirdi. Əgər 1969-cu ildə SSRİ-nin qabaqcıl ali məktəblərinə cəmi 47 nəfər göndərilmişdisə, 1975-ci ildə onların sayı 700 nəfərə çatdı. 1975-ci ildən başlayaraq azərbaycanlı gənclərin respublikadan kənarda təhsil alması intensiv xarakter aldı.

Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1970-ci ilədək 40 faiz təşkil edirdisə, bu rəqəm 1976-1977-ci illərdə müvafiq olaraq 85 və 92 faizə, 1980-ci illərin əvvəllərində 98 faizə yüksəldi.

Həmin dövrdə ciddi maneələrə baxmayaraq, milli hərbi kadrların yetişdirilməsi məqsədilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb təşkil olundu. Ulu Öndərimiz həmin dövrdə azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail oldu.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və digər hərbi məktəblərdə yetişən milli zabit kadrlarımızın Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu vardır. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində, həmçinin 44 günlük Vətən müharibəsində misilsiz igidliklər göstərmişlər.

Bu illərdəki coşqun fəaliyyəti, yüksək işgüzarlığı, fitri təşkilatçılıq bacarığı onun şöhrətini getdikcə artırır, sorağı SSRİ-nin hüdudlarını aşırdı. Bütün bunların nəticəsi idi ki, 1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. SSRİ kimi nəhəng dövlətin hakimiyyət iyerarxiyasında Azərbaycan oğlunun yüksək mövqe tutması çox qürurverici hadisə idi. Heydər Əliyev Moskvada yaşadığı və hakimiyyətdə yüksək vəzifə tutduğu 1982-1987-ci illərdə Azərbaycana diqqət və qayğısını əsirgəmir, respublikamızın ictimai, mədəni həyatı ilə daim maraqlanırdı.

1983-cü il sentyabrın 5-də Şərq xalçalarının sənətinə dair beynəlxalq simpozium çərçivəsində Azərbaycan Dövlət Rəsm Qalereyasında Azərbaycan xalçaları sərgisini ziyarət etdi.

1984-cü il fevralın 23-də Dərin Özüllər Zavoduna baş çəkdi. Həmin ildən etibarən, zavod ildə 60 min ton metal konstruksiyaları istehsal etməklə layihə gücü ilə işləməyə başladı.

1985-ci il fevralın 20-23-də SSRİ Ali Sovetinə deputatlığa namizəd kimi Bakıda bir sıra görüşlər keçirdi. Bu görüşlərdəki çıxışları Azərbaycan rəhbərliyi üçün mühüm proqram sənədi kimi qəbul olunurdu.

Heydər Əliyevin mərkəzi hakimiyyətdə yüksək vəzifə tutması ermənilərin Azərbaycanla bağlı məkrli planlarının həyata keçməsinə mane olurdu. Belə ki, 1985-ci ilin əvvəlində Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçiyan Sov.İKP MK-nın Siyasi Bürosuna müraciət edərək, qondarma "erməni soyqırımı"nın tanınmasını, yəni, 24 aprelin "anım günü" elan olunmasını təklif etmişdi. Siyasi Büronun iclasını aparan Qorbaçov bu təkliflə razılaşsa da, Heydər Əliyevin sərt və prinsipial mövqeyi ilə qarşılaşdı.

1986-cı il noyabrın 18-də Səməd Vurğunun Moskvada keçirilən 80 illik yubiley mərasimində Heydər Əliyev, Azərbaycandan gəlmiş yüksək səviyyəli nümayəndə heyəti, SSRİ rəhbərliyinin vəzifəli şəxsləri iştirak etdilər.

Moskvada yaşayan azərbaycanlılarla, eləcə də vaxtilə şəxsən özünün buraya ali məktəblərdə təhsil almağa göndərdiyi azərbaycanlı tələbələrlə görüşür, onların prob-

(Davamı səh. 3-də)

# Müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin təntənəsidir



(Əvvəli səh. 2-də)

lemlərinin həllinə kömək edirdi.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini postunu tutması Qorbaçov-erməni qruplaşmasına əsla sərf etmirdi və onların hədəfi Azərbaycanın böyük oğlunu bu vəzifədən uzaqlaşdırmaq idi. Sov.İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yürütdüyü siyasi xəttə etiraz olaraq Heydər Əliyev 1987-ci il oktyabrın 21-də tutduğu vəzifədən istefa verdi.

SSRİ rəhbərliyinin imperiya siyasətinə və ermənipərəst mövqeyinə etiraz əlaməti olaraq, Azərbaycan xalqı azadlıq hərəkatına qalxdı. Xalqımızın müstəqillik əzmini qırmaq üçün 1990-cı ilin yanvarında Bakıya qoşun yeridildi və qanlı qırğın törədildi. Azərbaycan xalqının taleyinə biganə qala bilməyən Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet qoşunlarının Bakıda törətdiyi qırğınlarla əlaqədar bəyanat verdi.

1990-cı illərin əvvəllərində Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və yeni əldə etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdı. Həmin dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası üçün də ciddi təhlükələr yaranmışdı. Məhz belə bir ağır zamanda Heydər Əliyev xalqının yanında olmaq üçün Bakıya gəlsə də, o vaxtkı hakimiyyətin təzyiqi nəticəsində doğulub boya-başa çatdığı Naxçıvana üz tutdu. Azərbaycanın müstəqilliyə gedən yolda ilk addımları məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda atıldı.

1990-cı il iyulun 20-də Moskvadan Bakıya qayıtdı. 1990-cı il sentyabrın 30-da Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Muxtar Respublikası Ali Sovetinə Naxçıvandan deputat seçildi. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə 12-ci çağırış Naxçıvan MSSR Ali Sovetinin 1-ci sessiyasında "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərarlar qəbul edildi. Bu qərarlarla Muxtar Respublikanın adından "sovet", "sosialist" sözləri çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edildi.

1990-cı il noyabrın 21-də Naxçıvan MR Ali Məclisi Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar qəbul etdi.

1991-ci il avqustun 30-da Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycanın müstəqillik Bəyannaməsi" ilə bağlı çıxış etdi. 1991-ci il oktyabrın 19-da Azərbaycan Respublikası Ali Sovetinin sessiyasına teleqram göndərərək dövlət müstəqilliyinin elan edilməsini böyük milli sərvət kimi dəyərləndirdi, bu münasibətlə bütün Azərbaycan xalqını təbrik etdi. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü haqqında" tarixi qərarını imzaladı. 1992-ci il avqustun 18-də Rusiyanın Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyasının əmlakının tamamilə Milli Ordunun briqadasına verilməsi haqqında aktın imzalanması mərasimində iştirak etdi.

1992-ci il noyabrın 21-də Heydər Əliyev Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçildi.

Blokada şəraitində olan Naxçıvanın iqtisadi problemlərinin həllinə böyük diqqət yetirildi, qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı, Naxçıvanı Türkiyə ilə birləşdirən "Ümid körpüsü" inşa edildi və digər mühüm tədbirlər həyata keçirildi.

Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini kimi Ali Sovetin sessiyalarında fəal iştirak edən Heydər Əliyev ələ birinci sessiyadakı (1991-ci il fevral) çıxışında Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan etdi.

SSRİ-nin saxlanması ilə bağlı referendumun keçirilməsinə qarşı çıxan Heydər Əliyev bu barədə qətiyyətli mövqeyini bildirdi. Məhz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda referendum boykot edildi, rus sovet qoşun hissələri buradan çıxarıldı, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verildi, Kommunist Partiyasının Naxçıvandakı bütün strukturları ləğv olundu.

Bütün bunlarla yanaşı, Ulu Öndər Heydər Əliyev Naxçıvanı erməni işğalından qorudu və muxtar respublikanın iqtisadi-sosial blokadadan çıxarılması üçün ilk addımları atdı.

Dövlət müstəqilliyinin bərpa edildiyi ilk illərdə bütün sahələrdə dərin tənəzzül yaşayan Azərbaycan böyük təhlükələrlə, hətta müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından əvvəl respublikada acınacaqlı vəziyyət hökm sürürdü. O dövrdə yürüdülən yanlış siyasət nəticəsində iqtisadi tənəzzülün dərinləşməsi, inflyasiyanın görünməmiş həddə çatması, xalqın yaşayış səviyyəsinin son dərəcə pisləşməsi, ictimai-siyasi böhran, vətəndaş müharibəsi, ölkənin parçalanma təhlükəsi ilə üz-üzə qalması kimi xarakterizə olunurdu. Ermənistanla müharibə vəziyyətində olan Azərbaycanda nizami ordu və vahid komandanlıq yox idi, silahlı dəstələr müəyyən qüvvələrin ambisiyalarına xidmət edirdilər.

Sosial gərginliyi azaltmaq üçün ölkə iqtisadiyyatının real imkanları nəzərə alınmadan görülən tədbirlər inflyasiya prosesinin daha da sürətlənməsinə səbəb olmuş, nəticədə, istehlak mallarının qiyməti dəfələrlə artmış, sənaye istehsalı, xarici ticarət dövriyyəsi azalmış, büdcə kəsiri artmışdı. Əgər, 1990-cı ildə respublikada 12 milyon 513 min ton neft hasil olunmuşdusa, 1992-1993-cü illərdə bu göstərici 9 milyon 563 min tona düşmüş, neft hasilatı 21,2 faiz, mavi qaz hasilatı isə 36 faiz azalmışdı.

Mərkəzi Bankın faiz dərəcələri 250 faizə çatdı, 1992-ci ildə tədavülə buraxılmış milli valyuta - manat tezliklə qiymətdən düşməyə başladı, Rusiya rubluna nisbətdə 9 dəfə, ABŞ dollarına nisbətdə isə 245 dəfə aşağı düşdü.

Belə ağır bir dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi xaos və anarxiyadan qurtardı. Bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısı alındı, dövlətçiliyimiz hər cür sui-qəsddən, dövlət çevrilişi cəhdlərindən qorundu və ölkəmiz dayanıqlı inkişaf yoluna çıxdı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər xalqımızın yaranmış tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir. Heydər Əliyevin hakimiyyətə qayıtdığı 1993-cü ilin 15 iyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. Həmin vaxtdan Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü başlandı.

1993-cü il iyunun 9-da Bakıya qayıdan Heydər Əliyevin Gəncəyə baş tutan səfəri tədricən ölkədə yaradılmış daxili sabitliyin təməlinə çevrildi. Heydər Əliyev AXC-Müsavat hakimiyyətinin qəsdi nəticəsində bombalanmış Gəncədə 709 saylı hərbi hissənin döyüş meydanına çevrilmiş ərazisinə baş çəkdi, şəhər sakinləri və hərbçilərlə görüşdü, vəziyyətdən çıxış yolunu müzakirə etdi,

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. 15 iyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı.

1993-cü il iyunun 24-də Milli Məclisin qərarı ilə Heydər Əliyev Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başladı.

1993-cü il sentyabrın 24-də Ulu Öndər Moskvada MDB ölkələrinin hökumət başçılarının Şura iclasında iştirak etdi və Azərbaycanın MDB-yə daxil olması haqqında sənədləri imzaladı.

1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev qısa müddətdə xaos və anarxiyaya son qoyulması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi istiqamətində gərgin fəaliyyətə başladı. Prezident seçildikdən sonrakı aylarda respublikada pul-kredit siyasəti və bankların fəaliyyəti, kriminogen vəziyyət, hərbi quruculuq məsələləri ilə bağlı müşavirələr, ölkədə fəaliyyət göstərən siyasi partiyaların nümayəndələri ilə görüş, cəbhə bölgələrində vəziyyətlə bağlı fövqəladə müşavirə, cəbhəyanı bölgələrdəki vəziyyətlə əlaqədar iclas və Müdafiə Şurasının ilk iclasını keçirdi.

1994-cü il fevralın 24-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edib, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırdı. Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul etdi. Bununla da Azərbaycan xalqının məruz qaldığı dəhşətli faciəyə - 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi.

1994-cü il mayın 12-də atəşkəs sazişi imzalandı. Beləliklə, müstəqilliyimizin ilk illərində çoxsaylı problemlərin həlli və ölkənin inkişaf mərhələsinə qədəm qoyması üçün zəruri şərait təmin edildi, ölkə iqtisadiyyatına sərmayə yatırmaqda maraqlı olan dövlətlərin, şirkətlərin tərəddüdlərinə son qoyuldu.

1994-cü il sentyabrın 20-də "Gülüstan" sarayında dünyanın 7 ölkəsinin məşhur neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Bu saziş ölkəmizin dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi kimi tanınmağa başladı. Müqavilə digər sahələrdə çalışan şirkətlərin də ölkəmizə marağını artırdı.

1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə cəhdlər göstərilərkən, Ulu Öndər Heydər Əliyev öz qətiyyəti sayəsində xalqın dəstəyi ilə dövlətçiliyimiz əleyhinə yönəlmiş bu təhlükəli cəhdlərin qarşısını ala bildi.

Ümummilli Liderin ölkə rəhbərliyinə qayıdışı ilə bir çox sahələrdə genişmiqyaslı islahatların, o cümlədən qanunvericilik islahatların həyata keçirilməsinə başlanıldı. 1995-ci il noyabrın 12-də referendum yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. Bununla da Azərbaycan demokratik inkişafın yeni mərhələsinə qədəm qoydu.

Azərbaycan mədəniyyəti 1993-2003-cü illərdə öz böyük hamisi Heydər Əliyevin qayğı və diqqəti sayəsində daha möhtəşəm bir dövrünü yaşayırdı. Ulu Öndərin imzaladığı çoxsaylı fərman və sərəncamlarla tarixi şəxsiyyətlərimizin, milli mədəniyyətimizin görkəmli nümayəndələrinin yubileylərinin, habelə milli bayramların və tarixi günlərin qeyd edilməsi ilə bağlı çox sayda tədbirlər keçirildi.

Ulu Öndər 1994-cü il mayın 27-də Respublika sarayında İstiqlal Günü münasibətilə keçirilən təntənəli yığıncaqda Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasında ədəbiyyatın və onun klassik nümayəndələrinin yaradıcılığının rolunu minnətdarlıq hissi ilə xatırlamışdı.

1996-cı ilin yazında mütəfəkkir şair Məhəmməd Füzulinin Bakıda keçirilən 500 illik yubileyi ilə əlaqədar yubiley şənlikləri məhz Heydər Əliyevin arzuladığı kimi müstəqil dövlətin ilk böyük ədəbiyyat və mədəniyyət bayramına çevrildi. UNESCO-nun qərarı ilə 1996-cı il dünya miqyasında "Füzuli İli" elan olundu.

Heydər Əliyev 1997-ci ilin aprelində "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi Parisdə - UNESCO-nun iqamətgahında yüksək səviyyədə qeyd olundu. 2000-ci il aprelin 9-da isə "Kitabi-Dədə Qorqud" dastanının yubiley tədbiri Bakıda keçirildi.

1996-cı il fevralın 1-də Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan Gənclərinin Birinci Forumunda iştirak etdi. Bu hadisə Azərbaycanda gənclik hərəkatının əsasını qoydu, gənclərimizin inkişafı, cəmiyyət həyatında fəallığının yüksəldilməsi istiqamətində mühüm addım oldu.

Heydər Əliyevin 1996-cı il 22 iyun tarixli Fərmanına əsasən, Azərbaycanın gənc istedadlarının "Qızıl kitab"ı təsis olundu və gənc istedadlara xüsusi təqaüd ayrıldı, həmçinin Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan qocaman ədəbiyyat və incəsənət xadimləri üçün ömürlük fərdi təqaüd təyin olundu.

Heydər Əliyevin Azərbaycanda latın əlifbasına keçilməsi, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2001-ci ildə imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanması çağırışı ilə Azərbaycan xalqına müraciətləri milli-mədəni inkişafda və mənəvi birliyin möhkəmlənməsində böyük rol oynadı.

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin qiymətləndirilməsi məsələsinə xüsusi diqqət yetirirdi, o cümlədən 2003-cü ilin fevralında Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında Sərəncam imzaladı.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanına əsasən, martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

1997-ci ilin yanvarında Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasının rəhbərliyini və aparıcı alimlərin bir qrupunu qəbul edərək Azərbaycanda elmi inkişaf strategiyasının əsas müddəalarını qəti müəyyənləşdirdi. Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu, 2003-cü il 4 yanvar tarixli Fərmanı ilə müstəqil dövlətimizin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu verildi.

Heydər Əliyevin tarixi nailiyyətlərindən

(Davamı səh. 4-də)

(Əvvəli səh. 3-də)

biri də Azərbaycan dövləti və xalqı qarşısında duran strateji vəzifəni - bir ictimai-iqtisadi sistemdən digərinə, yəni iflasa uğramış sosializmdən bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan sistemə keçidi təmin etməsidir.

Heydər Əliyevin fəaliyyəti sayəsində Azərbaycanın geosiyasi və mədəni potensialından səmərəli istifadə edilməklə ölkənin gələcək dinamik inkişafı üçün əlverişli imkanlar açıldı, məhz Ulu Öndərin təşəbbüsü ilə tarixi Böyük İpək Yolunun bərpasına yönəlmiş beynəlxalq proqramın həyata keçirilməsində Azərbaycanın aparıcı rolu təmin olundu.

Məhz Heydər Əliyevin çox gərgin və genişmiqyaslı fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı.

Heydər Əliyevin dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş azərbaycanlıların birlik və həmrəyliyinin yaradılması işində müstəsna xidmətləri vardır. Ulu Öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2001-ci ilin noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçirildi, Azərbaycan diasporunun fəaliyyətinin canlandırılması və gücləndirilməsi sahəsində çox mühüm qərarlar qəbul edildi.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynadı. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə oldu, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edildi.

Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq Heydər Əliyevin xarici siyasət strategiyasının əsasını təşkil edirdi. Ümummilli Lider ölkəmizə rəhbərlik etdiyi müddətdə bu sahədə bir sıra mühüm addımlar atmışdır.

1993-cü il dekabrın 20-də Azərbaycan ATƏM-in Paris Xartiyasına qoşuldu.

BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasına dair 1993-cü il aprelin 30-da 822, 1993-cü il iyulun 29-da 853, 1993-cü il oktyabrın 14-də 874, 1993-cü il noyabrın 12-də 884 saylı qətnamələr qəbul etdi.

Ermənistanın təcavüzü nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi ilə əlaqədar BMT Baş Assambleyası 1993-cü ildəki plenar iclasında qəbul edilən müvafiq qətnamədə Azərbaycandakı qaçqın və məcburi köçkünlərə beynəlxalq yardım göstərilməsi nəzərdə tutulurdu.

BMT Baş Assambleyasının 1994-cü ilin sentyabrında keçirilən 49-cu sessiyasında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il dekabrın 11-14-də İslam Konfransı Təşkilatının VII Zirvə toplantısında iştirak etdi. 52 ölkənin dövlət başçısının iştirak etdiyi Sammitin yekun qətnaməsində Ermənistanın Azərbaycana təcavüzü məsələsi də əksini tapdı. 1996-cı il dekabrın 2-4-də ATƏT-in Lissabon Sammitində Azərbaycan Respublikasının ərazi bütövlüyü Ermənistan istisna olmaqla bütün dövlətlər tərəfindən qətiyyətlə dəstəkləndi. Ermənistanın ciddi manelərinə baxmayaraq, Heydər Əliyevin prinsipial mövqeyi və gərgin səyi nəticəsində ATƏT-in sədrinin bəyanatı qəbul olundu. 1997-ci ildə Azərbaycan NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramına qoşuldu. 2000-ci ilin sentyabrında BMT-nin Minillik Zirvə Toplantısında iştirak edən Heydər Əliyev 150-dən çox dövlətin rəhbərlərinin qatıldığı tədbirdə nitq söylədi.

2001-ci ilin yanvarında Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi. Bununla da Azərbaycan diplomatiyası ölkə həqiqətlərinin Avropa ictimaiyyətinə çatdırılması üçün mötəbər platforma əldə etdi.

# Müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətinin təntənəsidir



Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, xarici dövlətlərlə əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərini təşkil edirdi. Azərbaycanın ikitərəfli səviyyədə əlaqələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirən Ulu Öndər Heydər Əliyev 19-21 dekabr 1993-cü il tarixlərində ilk rəsmi səfərini Fransaya etmişdir. Onun hakimiyyətə qayıdışından sonra Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni mərhələ başlanmış, sentyabrın 24-də isə Azərbaycan MDB-yə daxil olmuşdur.

1993-2000-ci illər arasında Prezident Heydər Əliyev ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirib. 1993-cü ildən 2001-ci ilədək Ümummilli Lider Heydər Əliyevin 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485 görüşü olub. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan münaqişəsi müzakirə olunub. Heydər Əliyev bu məsələni ABŞ-ın Prezidenti, Dövlət katibi ilə 18, Fransa rəhbərləri ilə 16, Rusiya rəhbərliyi ilə 23, Türkiyə rəhbərləri ilə 78 dəfə müzakirə edib. Ulu Öndərin BMT-nin baş katibləri ilə 10-dan artıq görüşü olub. NATO-nun, MDB-nin zirvə görüşlərində, İslam Konfransı Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatının dörd zirvə görüşündə, Türkdilli Ölkələrin Dövlət Başçılarının zirvə görüşlərində Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsini gündəliyə çıxarıb.

1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə yeni inkişaf strategiyasının təməlini qoyulu. İqtisadiyyatın bütün sahələrində aparılan düzgün və səmərəli siyasət nəticəsində ölkədə ümumi daxili məhsul 1996-2002-ci illərdə 71 faiz artdı və 2002-ci ildə 6,1 milyard manata çatdı.

"Əsrin müqaviləsi"nin praktiki cəhətdən reallaşması, sənayenin bir çox sahələrinə sərmayələrin yönəldilməsi, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi ilə sənayedə dirçəlişin təməli qoyuldu. Nəticədə sənayedə yaranmış əlavə dəyərin ümumi daxili məhsulda xüsusi çəkisi 1993-cü ilə nisbətən 12,6 faiz artaraq 2002-ci ildə 37,4 faiz təşkil etdi.

1993-cü ildən başlayaraq kənd təsərrüfatı sahəsi yenidən dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrildi. Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş bu siyasət MDB məkanında ilk dəfə olaraq, torpaq üzərində xüsusi mülkiyyət münasibətlərinin formalaşması ilə başlanıldı, aqrar sahənin inkişafı istiqamətində ciddi islahatlar həyata keçirildi.

1993-2002-ci illərdə istehsal və qeyri-istehsal sahələrinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən 70-dən çox yeni obyekt inşa edildi. 1993-2002-ci illərdə bütün maliyyə mənbələri hesabına ölkə iqtisadiyyatının və sosial sahələrin inkişafına 8,2 milyard manat investisiya yönəldildi, 2002-ci ildə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 1993-cü ilə nisbətən 36,3 dəfə artdı. 1993-2002-ci illərdə xarici investorlar tərəfindən əsas kapitala ümumi investisiyanın 63,8 faizi qədər sərmayə yönəldildi.

Həmin dövrdə 74,1 min yeni mənzil, 31,1 min şagird yerlik 82 yeni ümumtəhsil məktəbi, 2,2 min yerlik məktəbəqədər təhsil müəssisələri, 1,5 min çarpayılıq xəstəxana və növbədə 3 min nəfər qəbul edən ambulatoriya-poliklinika müəssisələri istifadəyə verildi.

1996-2002-ci illərdə nəqliyyat sektorunda yük daşınması 2,4 dəfə artdı. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin bərpası Ulu Öndərin Azərbaycan xalqına ən böyük töhfələrindəndir.

Əgər 1993-cü ildə 60 xarici ölkə ilə ticarət əlaqələri qurulmuşdusa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənərək 128 xarici dövlətlə idxal-ixrac əməliyyatları aparıldı. 2002-ci ildə xarici ölkələrlə ticarət dövriyyəsi 3 milyard 832,9 milyon ABŞ dollarına çatdı və 1993-cü illə müqayisədə 2,8 dəfə artdı.

Əgər 1996-cı ildə ölkədə 602 xarici investisiyalı müəssisə fəaliyyət göstərirdisə, 2002-ci ildə bu rəqəm 3,5 dəfə artaraq 2104-ə çatdı. Bu dövrdə xarici şirkət və ya fiziki şəxslərin iştirakı ilə yaradılmış birgə müəssisələrin sayı 94,1 faiz artdı.

1997-ci ilin sentyabrında "Əsrin müqaviləsi" çərçivəsində qazma işlərinin başlandığı "Çıraq" yatağında noyabrın 7-də ilk neft hasil olundu. Noyabrın 12-də bu münasibətlə platformada Ulu Öndər Heydər Əliyevin, layihənin əməliyyatçısı olan BP şirkətinin və tərəfdaşlarının nümayəndələrinin, xarici ölkələrdən gəlmiş qonaqların iştirakı ilə təntənəli mərasim keçirildi. Bu tarixi hadisə Azərbaycanın yeni neft strategiyasının uğurlarının başlanğıcı oldu. 2005-ci ilin fevralında "Mərkəzi Azəri" yatağından, 2006-cı ilin yanvarında "Qərbi Azəri" yatağından, 2006-cı ilin oktyabrında isə "Şərqi Azəri" yatağından neftin hasilatına başlanıldı.

2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artaraq 910,2 milyon manata yüksəldi, xərcləri isə 72,2 dəfə artaraq 931,8 milyon manat təşkil etdi.

Ulu Öndər Heydər Əliyevin əmək bazarının inkişafına, məşğulluq və işsizlik problemlərinin həllinə göstərdiyi diqqət sayəsində iqtisadiyyatın qeyri-dövlət sektorunda məşğulluğun payı 1995-ci ildəki 43,9 faizdən 2002-ci ildə 69,7 faizədək artdı.

Azərbaycanda bu dövrdə qəbul edilmiş Əmək Məcəlləsi, Məşğulluq və Əmək Miqrasiyası haqqında qanunlar, Demoqrafik İnkişaf və Pensiya İslahatı konsepsiyaları, "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" əmək və əhalinin sosial müdafiəsi sahələrində yeni strateji istiqamətlərin əsasını qoydu.

Ulu Öndər tərəfindən 1999-cu ildə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunduqdan sonra ölkədə təhsil islahatlarına başlanıldı. 1993-cü ildə 15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərindən 703 nəfərinin ali və tam orta təhsili olduğu halda, 2002-ci ildə bu göstərici 753-ə çatdı.

1997-ci ildə "Əhalinin sağlamlığının qorunması haqqında" Qanun qəbul edildi.

Dövlət siyasətinin əsas prioritetlərindən olan mədəniyyət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin qorunub saxlanması sahəsində də Dövlət proqramları qəbul edildi.

Düzgün düşünülmüş iqtisadi islahatlarla yanaşı, milli sosial müdafiə sisteminin qurulması və inkişaf etdirilməsi proseslərinə başlanıldı. 1993-2003-cü illərdə sosial inkişafın təmin olunması, əhalinin rifah halının yüksəldilməsi üçün 60-dan artıq sənəd imzalandı.

1995-2003-cü illərdə respublikamızda pensiya və müavinətlərin orta aylıq məbləği 8 dəfə, orta aylıq əməkhaqqı 6 dəfədən çox artdı.

2001-ci ilin iyulundan Azərbaycanda Pensiya İslahatı Konsepsiyasının icrasına başlanıldı, beynəlxalq standartlara uyğun müasir sığorta-pensiya modelinin, sığorta münasibətlərinə əsaslanan pensiya sisteminin qurulması təmin edildi.

Şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin dövlət hesabına mənzillərlə təminatına başlanıldı.

Ulu Öndərin tapşırığı ilə əlilliyi olan şəxslərin müxtəlif reabilitasiya vasitələri ilə təminatı, bərpa-müalicə və protez xidmətinin təkmilləşdirilməsi, reabilitasiya sisteminin bölgələr üzrə genişləndirilməsi, aktiv məşğulluq tədbirləri geniş miqyas aldı.

Bu gün Azərbaycan dünyada ən sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən-ilə yüksəlməsinə imkan yaradır.

İkinci Qarabağ müharibəsində qazanılmış parlaq Qələbə güclü dövlət-güclü ordu konsepsiyasının təntənəsidir. Otuz il işğal altında qalan torpaqlarımız məhz bu konsepsiyanın nəticəsində hərbi-siyasi yolla azad olundu, ərazi bütövlüyümüz təmin edildi.

Regionun gündəliyini bu gün Azərbaycan diktə edir. Dünya gücləri Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşırlar.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq, nəhəng transmilli nəqliyyat və enerji layihələri həyata keçirən Azərbaycanın bu təşəbbüsləri dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənir, ölkəmizə iqtisadi-siyasi dividentlər qazandırır.

Azad olunmuş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri heç kəsdən yardım alınmadan Azərbaycanın öz imkanları hesabına sürətlə davam etdirilir, Böyük Qayıdış Proqramı çərçivəsində ilk uğurlu addımlar atılır.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı bu böyük uğurlara çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirdi.

Prezident İlham Əliyevin müasir Azərbaycan siyasətində bir qüdrətli şəxsiyyət olaraq meydana çıxması mahiyyət etibarilə Heydər Əliyev siyasətinin təkcə davamı deyil, eyni zamanda onun yeni keyfiyyət halında inkişaf etdirilməsidir.

Xalqımız Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, dahi rəhbərin yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir.

**XƏZƏR ASLANOV,**
**Xızı Rayon İcra Hakimiyyətinin başçısı**

# Mayın 10-da Xızı rayonunda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Sən əbədi zirvəsən!” adlı yubiley tədbiri keçirilmişdir

***“Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, ictimai-siyasi həyatımızda öz əksini tapmışdır”.***

***İLHAM ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezident***

Mayın 10-da Xızı rayonunda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş ”Sən əbədi zirvəsən!” adlı geniş tərkibli yubiley tədbiri keçirilmişdir.

Xızı Rayon İcra Hakimiyyətinin və Sumqayıt Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında RİHBA-nın işçiləri, Millət vəkili Müşfiq Məmmədi, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, eləcə də rayonda fəaliyyət göstərən idarə, təşkilat, müəssisələrin rəhbərləri və əməkdaşları, ağsaqqallar, təhsil, səhiyyə və mədəniyyət kollektivləri, şəhid ailələri, qazilər, ziyalılar, gənclər, məktəblilər, incəsənət ustaları iştirak etmişlər.

Tədbir iştirakçıları, əvvəlcə, Ulu Öndər Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək önünə tər gül dəstələri düzmüş, dahi rəhbərin işıqlı xatirəsinə dərin ehtiramlarını bildirmişlər.

Tədbirin rəsmi hissəsi Heydər Əliyev Mərkəzində davam etdirilmişdir. Azərbaycan Respublikasının Dövlət Himni səsləndikdən sonra Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun Ümummilli Lider Heydər Əliyevin siyasi fəaliyyətindən bəhs edən geniş çıxışı dinlənilmişdir.

Xəzər Aslanov qeyd etmişdir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş, çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyevin özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olduğunu bildirən natiq vurğulamışdır ki, 1970-ci illərin sonunda Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxdı. Ulu Öndər xalqın yaradıcılıq enerjisini vahid məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində gələcəyə hesablanmış qətiyyətli addımlar atır, mühüm qərarlar qəbul edirdi. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Məhz bunun sayəsində bu illərdə Ümummilli Liderin milli-mədəni inkişaf və tarixi yaddaşımızın bərpası istiqamətində gördüyü misilsiz işlər xalqımızda milli ruhun canlanmasını, özünüdərki və soykökə qayıdışı təmin etdi, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşları qoyuldu, azadlıq və müstəqillik duyğuları milli düşüncədə üstünlük təşkil etməyə başladı.

”Dövlət müstəqilliyinin bərpa edildiyi ilk illərdə bütün sahələrdə dərin tənəzzül yaşayan Azərbaycan böyük təhlükələrlə, hətta müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından əvvəl respublikada acınacaqlı vəziyyət hökm sürürdü. O dövrdə yürüdülən yanlış siyasət nəticəsində iqtisadi tənəzzülün dərinləşməsi, inflyasiyanın görünməmiş həddə çatması, xalqın yaşayış səviyyəsinin son dərəcə pisləşməsi, ictimai-siyasi böhran, vətəndaş müharibəsi, ölkənin parçalanma təhlükəsi ilə üz-üzə qalması kimi xarakterizə olunurdu" - deyən Xəzər Aslanov daha sonra vurğulamışdır ki, 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev qısa müddətdə xaos və anarxiyaya son qoyulması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi istiqamətində gərgin fəaliyyətə başladı. Heydər Əliyevin fəaliyyəti sayəsində Azərbaycanın geosiyasi və mədəni potensialından səmərəli istifadə edilməklə ölkənin gələcək dinamik inkişafı üçün əlverişli imkanlar açıldı, beynəlxalq proqramların həyata keçirilməsində Azərbaycanın aparıcı rolu təmin olundu. Məhz Heydər Əliyevin çox gərgin və genişmiqyaslı fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana münasibəti əsaslı surətdə dəyişdi, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı.

Çıxışda Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, Azərbaycanın müasir inkişafının, 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbənin məhz Ümummilli Liderin müdrik siyasətinin təntənəsi olduğu diqqətə çatdırılmışdır.

Daha sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əks etdirən videofilm nümayiş etdirilmişdir.

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş ”Sən əbədi zirvəsən!” adlı yubiley tədbiri Xızı şəhərindəki Heydər Əliyev Parkında rəngarəng konsert proqramı ilə davam etdirilmişdir. İncəsənət ustalarının ifasında ədəbi-bədii kompozisiyalar, mahnılar nümayiş olunmuşdur. Konsert proqramı tədbir iştirakçıları tərəfindən hər dəfə alqışlarla qarşılanmışdır.

**R.Məmmədov,**
*“XIZI”*
*10 may 2023-cü il*
















# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ağacəkmə aksiyası keçirilmişdir





Bildiyimiz kimi, 2023-cü il Azərbaycan tarixinə "Heydər Əliyev ili" kimi daxil olub. Bu məqsədlə Xızı rayonunda silsilə tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri də Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə təşkil olunmuş ağacəkmə aksiyasıdır. Aksiyada Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin əməkdaşları iştirak etmişlər.

"Heydər Əliyev ili" çərçivəsində ağacəkmə aksiyasının keçirilməsinin məqsədi Azərbaycanda ətraf mühitin və meşə zolaqlarının qorunması və mühafizəsini hər zaman diqqətdə saxlamış Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, onun yaşıllaşdırma ənənələrini, irsini davam etdirmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etməkdir.

Xızı şəhərindəki Heydər Əliyev Parkında keçirilmiş aksiyada, alınan məlumata görə, 900 ədəd həmişəyaşıl tuya və şərv ağacları əkilmiş, yeni basdırılmış tinglərə aqrotexniki qulluq göstərilmiş və suvarılmışdır. Ağacəkmə aksiyasında 90 nəfər iştirak etmişdir.

***"XIZI", R.M.***

# Heydər Əliyev müasir tariximizə dövlətçiliyimizin xilaskarı və qurucusu kimi daxil oldu



Azərbaycan xalqının böyük oğlu, dövlətçilik tariximizdə əvəzsiz xidmətləri olan dahi şəxsiyyət, dünya şöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyidir. Azərbaycan xalqının son əsrdə dünyaya bəxş etdiyi böyük vətəndaş, azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı, müdrik siyasi xadim kimi tarix səhifələrində silinməz iz qoymuş Heydər Əliyevin milli dövlətçiliyimizin formalaşmasında, möhkəmləndirilməsində və inkişafında misilsiz fəaliyyəti hələ bundan sonra da öyrəniləcək və hər birimiz üçün örnək olaraq qalacaqdır.

Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan keşməkeşli və şərəfli yol dahi öndərin hakimiyyətə birinci rəhbərliyi dövründən başlayır. 1969-cu ildə Azərbaycana rəhbər seçilən Heydər Əliyevin dövlətə rəhbərliyinin ilk günlərindən respublikada böyük bir bir inqilabın başlandığı göz önündə idi. Heydər Əliyev qazandığı uğurlarla xalqını, dövlətini sevən rəhbər olduğunu sübuta yetirdi. Ulu Öndər respublikanın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərdi. Fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti ilə Azərbaycanı cəmi bir neçə ilə dinamik inkişaf yoluna gətirməyə müvəffəq oldu. İdarəçilikdə mütərəqqi yeniliklərin tətbiqi, milli kadrların önə çəkilməsi yolu ilə cəmiyyətin normal inkişaf ahəngini təmin etdi.

Ümummilli Lider Heydər Əliyev iqtisadi inkişafla yanaşı, respublikada ilk növbədə milli-mənəvi ruhu yüksəltməklə azərbaycanlıların öz tarixi ənənələrinə, köklərinə bağlılığını möhkəmləndirməyə çalışırdı. Müxtəlif tədbirlərdə azərbaycanca çıxış etməklə cəmiyyətə milliləşmənin zəruriliyi çağırışını yayır, doğma dilə, dinə, dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağı ictimai fikrə böyük müdrikliklə təlqin edirdi. Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər Azərbaycanda milli özünüdərki gücləndirir, müstəqil düşüncəyə, dövlətçilik təfəkkürünə yol açırdı. Böyük öndər sovet ideologiyasının bütün manеələrini yararaq Azərbaycanda milli özünüdərk məsələlərini önə çəkməyi, cəmiyyəti bütün sahələr üzrə mənəvi yüksəlişə ruhlandırmağı, ona qol-qanad verməyi bacarmışdı.

XX əsrin 90-cı illərində Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi zaman dünya miqyasında mürəkkəb və ziddiyyətli geosiyasi proseslər baş verirdi. Belə bir şəraitdə müstəqil dövlət qurmaq son dərəcə müdrik, yaradıcı və çevik yanaşma tələb edirdi. Heydər Əliyev bu vəzifəni 1993-cü ildən etibarən uğurla yerinə yetirməyə başladı. Həmin ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, xaosun, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalq təkidlə Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Bu ümummilli hərəkata çevrildi. 15 iyun 1993-cü il tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Həmin gün müdrik siyasətçinin, təcrübəli və iradəli dövlət xadiminin hakimiyyətə tarixi qayıdışı baş verdi. Dahi şəxsiyyət Azərbaycanın idarəçilik sükanı arxasına keçərək qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürdü və onun sürətli icrasına başladı. Üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə cəsarətlə sinə gərərək mübarizlik, əyilməz iradə, dəmir məntiq, özünəinam və siyasi uzaqgörənlik kimi fövqəl keyfiyyətlərdən məharətlə bəhrələnən Heydər Əliyev xalqımızı vətəndaş müharibəsindən, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu.

Bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə, inkişafa doğru məhz Heydər Əliyevin təməlini qoyduğu yol ilə inamla irəliləməkdədir. Ölkənin siyasi, iqtisadi, sosial mənzərəsi göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi lider olduğunu təsdiqləmiş, ictimai inamı tam doğrultmuşdur. Dövlət başçısının fəaliyyətinin üstün cəhəti məhz bundan ibarətdir ki, o, mövcud gerçəklikləri obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə ən optimal qərarlar qəbul etməyi, ölkənin taleyüklü problemlərinə həssaslıqla yanaşmağı bacarır. Heydər Əliyev hələ sovet dövründə Azərbaycanı cəmi bir neçə ilə dinamik inkişaf yoluna gətirməyə müvəffəq olmuşdu. Azərbaycan böyük inkişaf yolu keçmiş və sənaye istehsalında payı əhəmiyyətli dərəcədə artmışdı. Azərbaycan bu gün də inkişaf yolundadır. Həyata keçirilən sosial-iqtisadi inkişaf proqramları ölkənin yüksəlişinə böyük töhfələr verib. Son illərdə ölkəmizdə onlarla istehsal müəssisələri yaradılıb. Bütün bunlar qürur hissi doğurur.

**Fərrux Haqverdiyev,**
*Xızı Rayon Suvarma Sistemləri İdarəsinin rəisi, YAP fəalı*

# Azərbaycan xalqının sevgisini qazanmış Ulu Öndər



2023-cü il mayın 10-da dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Xalqımız Azərbaycanın rəmzi kimi qəbul edilən ulu öndər Heydər Əliyevin əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır.

XX əsrin 70-ci illərindən etibarən Azərbaycanın siyasi həyatı və bütünlükdə cəmiyyətimiz dünya səviyyəli siyasətçi Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində yeni inkişaf mərhələsinə qədəm qoydu. O zamandan başlayan böyük tarixi mərhələdə Ulu Öndər Heydər Əliyev ideyaları həyatımızın başlıca gerçəkliyi, inkişafımızın təməl daşı olaraq qalmaqdadır.

Dahi siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixində nadir şəxsiyyətlərdəndir ki, onun zəngin irsi hər zaman tarixçilərin və tədqiqatçıların daim diqqət mərkəzində olacaqdır. Ulu Öndər Azərbaycan xalqının milli dövlətçilik mübarizəsindəki saysız-hesabsız xidmətləri ilə bütün dünya azərbaycanlılarının sonsuz sevgisini qazanmışdır. Ulu Öndər çıxışlarının birində deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub".

Azərbaycanın müstəqil ölkə kimi mövcudluğu, dövlətçiliyin qorunub saxlanılması, möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki yenicə qazanılan dövlət müstəqilliyini, hətta Azərbaycanı bir dövlət kimi yox olması təhlükəsi ilə üz-üzə qoymuşdu. 1993-cü il 4 iyun hadisələri bu sonluğun kulminasiya nöqtəsi oldu. Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalnız Ulu Öndər Heydər Əliyevin simasında gördü. Çünki bu böyük insan ümumxalq inamını, etibarını artıq o zamanadək xalqına sədaqətli, şərəfli xidməti ilə qazanmışdı. Dövlətçilik anlayışından bixəbər olan və hərbi birləşmələri əslində öz məqsədləri üçün istifadə edən ayrı-ayrı şəxslərin hədələrindən qorxub gizlənmiş və bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən o vaxtkı hakimiyyət özü də xilas üçün sonda Ulu Öndər Heydər Əliyevdən imdad istədi.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Ümummilli Lider daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına Azərbaycan dövlətini qurdu və ölkəmizin gerçək müstəqilliyini təmin etdi. Heydər Əliyev demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərqərar etdi, cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoydu.

Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən də atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Azərbaycan daxilində yaranan nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlandı ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişafının əsas təminatçısı rolunu oynadı. Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi ilə 1995-ci ilin noyabrında ilk Konstitusiyasının qəbul edilməsi, 1998-ci ildə ölüm hökmünün ləğv edilməsi, ölkədə aqrar islahatların aparılması, 2001-ci ilin yanvarında respublikamızın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi müstəqil Azərbaycanın tarixində olduqca böyük əhəmiyyətə malik hadisələrdəndir. Ulu Öndər Heydər Əliyev Azərbaycanı tənəzzüldən tərəqqi yoluna çıxartdı, öz doğma xalqını uçurumların üzərindən böyük müdrikliklə, incə və çevik siyasətlə bu günlərə çatdırdı.

**Ayaz Quliyev,**
*YAP Xızı rayon təşkilatının sədri*

# “Ulu Öndər Heydər Əliyevin irsi milli sərvətimizdir" adlı tədbir keçirilib





**Mayın 17-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında Xızı Rayon İcra Hakimiyyətinin və YAP Xızı rayon təşkilatının birgə təşkilatçılığı ilə ”Ulu Öndər Heydər Əliyevin irsi milli sərvətimizdir” adlı tədbir keçirilib.**

Tədbirdə Xızı RIHBA-nın işçiləri, partiya fəalları, idarə, təşkilat və müəssisələrin əməkdaşları, ziyalılar, gənclər iştirak ediblər.

Giriş sözü ilə çıxış edən Xızı RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının və dövlətçiliyinin tarixindəki müstəsna xidmətlərindən, onun ölkəmizə rəhbərliyi dövründə Azərbaycanın milli-mənəvi dəyərlərinə göstərilən yüksək qayğıdan, Azərbaycan dilinin əhəmiyyətinin artması, milli dövlətçilik düşüncəsinin, təhsilin, mədəniyyətin yüksəlişinin təmin edilməsindən danışıb. O qeyd edib ki, Ümummilli lider Heydər Əliyevin zəngin və çoxşaxəli irsi xalqımızın müqəddəs mirasıdır və bu mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Sonrakı çıxışlarda xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasını formalaşdıran, müxtəlif sivilizasiyaların qovşağında Azərbaycanı çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar kimi tanıdan Ulu Öndər Heydər Əliyevin mükəmməl quruculuq proqramından, yeni müstəqillik əldə etmiş respublikanın hüquqi və demokratik dövlət kimi möhkəmləndirilməsivə inkişaf etdirilməsi yolunda sarsılmaz fəaliyyəti və misilsiz xidmətlərindən bəhs edilib.

Tədbirdə Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoslayd nümayiş etdirilib.

Daha sonra Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş fotosərgiyə baxış keçirilib.

*“XIZI”, R.M.*

# “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda görüş keçirilmişdir



Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar Xızı rayonunda keçirilmiş tədbirlərdən biri də ”Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda təşkil olunub.

Tədbir Heydər Əliyev Mərkəzində Xızı Rayon İcra Hakimiyyətinin, Xızı Rayon Gənclər və İdman İdarəsinin, YAP Xızı rayon təşkilatının, eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xızı rayon bölməsinin birgə təşkilatçılığı ilə keçirilmişdir.

Əvvəlcə, Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Daha sonra Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Abdulla Hüseynov çıxış edərək bildirib ki, gənclik böyük güc, böyük arzular, böyük ümidlər və sağlam düşüncə deməkdir. Ümummilli lider Heydər Əliyev Azərbaycanı ”gənclər ölkəsi”, gəncləri isə ”Azərbaycanın gələcəyi” adlandırır, gənc nəslə hər zaman diqqət və qayğı göstərirdi. Bu gün də hər bir gənc dövlətin diqqət və qayğısını yüksək qiymətləndirməli, onlar üçün yaradılan fürsət və imkanların dəyərini bilməli, ailəsi, vətəni və cəmiyyət üçün faydalı olmalıdır.

Daha sonra mövzu ətrafında YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xızı rayon bölməsinin rəisi, polkovnik-leytenant Gündüz Abdullayev, Xızı Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Elyanar Hüseynov, şəhid R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin müəllimi Xatın Abadova çıxış etmişlər. Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə dövlət orqanlarının fəaliyyətində gənclərlə işə daha çox önəm verildiyi, ölkəmizdə müasir milli gənclər siyasətinin formalaşdırıldığı vurğulanmışdır. Diqqətə çatdırılmışdır ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir gənclər siyasətini hazırda Prezident İlham Əliyev uğurla davam etdirir.

Rəsmi hissə başa çatdıqdan sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinin foyesində təşkil olunmuş Xızı rayonunun yeniyetmə və gənc rəssamlarının hazırladıqları əl işlərindən ibarət sərgi ilə tanış olmuşlar.

*“XIZI”, R.M.*

**“Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”.**

**Heydər Əliyev,**
**Ümummilli Lider**

# Ulu Öndər Heydər Əliyevin irsi milli sərvətimizdir



Azərbaycan xalqının Ümummilli Lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr edən bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli Liderimiz Heydər Əliyevin xidmətləridir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə gələcək müstəqilliyimizin təməl daşları qoyuldu, iqtisadi, sosial və mədəni potensial formalaşdı. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi daxil olmuşdur. Bu dövrdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verilmiş, 630 min yeni iş yeri açılmışdır.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır.

Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edilmiş, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edilmişdir. Yeni yaşayış massivləri salınmış, yollar qurulmuş, ucqar rayonlara qaz xətləri çəkilmişdir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Bu dövrdə Ümummilli Liderin milli-mədəni inkişaf və tarixi yaddaşımızın bərpası istiqamətində gördüyü misilsiz işlər xalqımızda milli ruhun canlanmasını, özünüdərki və soy-kökə qayıdışı təmin etdi. Heydər Əliyev fenomeninin ən mühüm göstəricilərindən biri də Azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, Ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, sivilizasiyaların qovşağında Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar kimi tanıdılması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələridir.

1990-cı illərin əvvəllərində Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və yeni əldə etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdı. Belə ağır bir dövrdə xalqın təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi xaos və anarxiyadan qurtardı. Bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısı alındı, dövlətçiliyimiz hər cür sui-qəsddən, dövlət çevrilişi cəhdlərindən qorundu və ölkəmiz dayanıqlı inkişaf yoluna çıxdı. Onun Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illərdə milli dövlətçiliyin möhkəm təməli qoyuldu, Azərbaycan Respublikasının istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi.

Ümummilli Liderin ölkə rəhbərliyinə qayıdışı ilə bir çox sahələrdə genişmiqyaslı islahatların, o cümlədən, qanunvericilik islahatlarının həyata keçirilməsinə başlanıldı. 1995-ci il noyabrın 12-də referendum yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi ilə Azərbaycan demokratik inkişafın yeni mərhələsinə qədəm qoydu.

1996-cı il fevralın 1-də Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan Gənclərinin I Forumunda iştirak etməsi Azərbaycanda gənclik hərəkatının əsasını qoydu, gənclərimizin inkişafı, cəmiyyət həyatında fəallığının yüksəldilməsi istiqamətində mühüm addım oldu.

Ulu Öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2001-ci ilin noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi, Azərbaycan diasporunun fəaliyyətinin canlandırılması və gücləndirilməsi sahəsində çox mühüm qərarlar qəbul edildi. Qurultayın açılış mərasimində çıxış edən Ümummilli Lider Heydər Əliyev dövlətin bu sahədə siyasətinin prioritet istiqamətini nəzərə çatdırdı.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoyan, azərbaycanlı olması ilə ömür boyu fəxr edən, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir.

Bu gün ən mühüm tarixi məqam budur ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə həyata keçirən möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin son 20 il ərzində bütün müstəvilərdə, o cümlədən iqtisadi inkişaf, ordu quruculuğu, diplomatiya və digər sahələrdə əldə etdiyi uğurlar müzəffər ordumuzun yaratdığı və yazdığı Qələbə salnaməsinin əsasını qoydu. 30 ilə yaxın işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad etdi, ərazi bütövlüyümüz bərpa olundu. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

**Abdulla Hüseynov,**
*Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı*

Təhsil xəbərləri

## "Heydər Əliyev və müasir Azərbaycan" adlı rəsm müsabiqəsi keçirilib



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi, "1nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi" Publik Hüquqi Şəxsin və Xızı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə mayın 5-də Xızı şəhərində "Heydər Əliyev və müasir Azərbaycan" adlı tədbir keçirilib.

Tədbirin keçirilməsində əsas məqsəd Ulu Öndər Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi, vətəni, xalqı qarşısında misilsiz xidmətləri haqqında gənc nəsli məlumatlandırmaq və onun işıqlı xatirəsini yad etmək olub.

Qeyd edək ki, tədbirdə Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva, xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının dekorativ tətbiqi sənət bölməsinin müdiri, Milli Xalça Muzeyinin eksperti, xalçaçı rəssam Aydın Rəcəbov, əməkdar rəssam, Azərbaycan Dövlət



Rəssamlıq Akademiyasının müəllimi, Milli Xalça Muzeyinin aparıcı eksperti, professor Məmmədhüseyn Hüseynov, "1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi" Publik Hüquqi Şəxsin direktoru Kəmalə Abdullayeva, Xızı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Vasif Əsdanov və digər rəsmi şəxslər, müəllim kollektivi iştirak edib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva çıxış edərək tədbirin keçirilməsinin əhəmiyyətindən danışıb, Ümummilli Lider Heydər Əliyevin digər sahələrə olduğu kimi Azərbaycan təhsilinə, incəsənətinə göstərdiyi diqqət və qayğıdan söhbət açıb. Çıxışının sonunda İlhamə Abdullayeva rəsm müsabiqəsinin iştirakçılarına uğurlar arzulayıb.

Tədbir çərçivəsində "1nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi" Publik Hüquqi Şəxsin və Xızı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri arasında mövzu ilə əlaqədar canlı rəsm müsabiqəsi keçirilib. Müsabiqənin qalibləri Azərbaycan Rəssamlar İttifaqının və "1nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi" Publik Hüquqi Şəxsin, eləcə də Xızı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin hazırladıqları diplom və təşəkkürnamələrlə təltif olunublar.

Daha sonra tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət ediblər.

*"XIZI", R.M.*

## "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" adlı tədbir keçirilib



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar Xızıda "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" adlı tədbir keçirilib. Xızı Rayon İcra Hakimiyyətinin və YAP Xızı rayon təşkilatının birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində keçirilmiş tədbirdə RİHBA-nın işçiləri, partiya fəalları, mədəniyyət işçiləri, gənclər, rayon ziyalıları iştirak ediblər.**

Tədbiri giriş sözü ilə açan Xızı RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov öz çıxışında Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərindən, milli dövlətçiliyimizin möhkəmləndirilməsi məqsədilə irəli sürdüyü azərbaycançılıq ideyasından, dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməsindən və bu sahədə yürütdüyü sistemli və ardıcıl siyasətdən danışmışdır.

Daha sonra mövzuətrafı çıxışlar dinlənilmişdir. Natiqlər Ulu Öndər Heydər Əliyevin beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, yeni müstəqillik əldə etmiş respublikanın hüquqi və demokratik dövlət kimi möhkəmləndirilməsi və inkişaf etdirilməsi yolunda sarsılmaz fəaliyyəti və misilsiz xidmətlərindən söhbət açmışlar.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən video-slayd nümayiş etdirilmişdir

Sonda mövzu ilə bağlı tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

*"XIZI", R.M.*

## Xızı məktəblisi Ülvi Xəlilov respublika rəsm nominasiyasında III yerə layiq görülüb




Xəbər verildiyi kimi, mayın 8-də Abşeron-Xızı Regional Təhsil İdarəsi və Sumqayıt Bələdiyyəsinin dəstəyi, "1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzi" Publik Hüquqi Şəxsin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş Sumqayıt ümumtəhsil məktəblərinin şagirdləri və respublika Uşaq-Gənclər İnkişaf Mərkəzlərinin dərnək üzvləri arasında keçrilən "El bilir ki, sən mənimsən..." adlı respublika rəsm və əl işi müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi keçirilmişdir. Mükafatçılar sırasında Xızı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvü Ülvi Xəlilov da yer tutub. Xızı məktəblisi rəsm nominasiyasında da III yerə layiq görülüb.

*"XIZI", R.M.*

# İdman xəbərləri



### Şahmat

Xızıda "Heydər Əliyev İli"nə həsr olunmuş yeniyetmələr arasında şahmat üzrə rayon çempionatı keçirilmişdir. Xızı Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəhid R.İsmayılov adına Xızı şəhər tam orta məktəbində keçirilmiş yarışda 25 yeniyetmə şahmatçı birincilik uğrunda mübarizə aparıb. Yarış Ümummilli Lider Heydər Əliyevin xatirəsinin yad edilməsi, uşaq və yeniyetmələr arasında şahmatın təbliği, idmanın bu növünə marağın artırılması və kütləviliyinə nail olunması, perspektivli şahmatçıların üzə çıxarılması, eyni zamanda asudə vaxtın səmərəli təşkil olunması məqsədilə təşkil olunub.

Gərgin mübarizə şəraitində keçən çempionatın yekun nəticəsinə görə, oğlanlar arasında Nuhulla Qulizadə I, Yusif Kərimov II, Rəvan Qulizadə isə III yeri tutub. Qızların yarışında Aysu Səfərova I, Ayan Kərimli II, Dəniz Cabbarova isə III yerin sevincini yaşayıblar.

Rayon çempionatında fərqlənən yeniyetmə şahmatçılar diplomlarla təltif olunublar.

### Tir atıcılığı

Mayın 18-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində Xızı rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr olunmuş tir atıcılığı yarışı keçirilmişdir. Rayonun müxtəlif müəssisələrini təmsil edən gənclər arasında keçirilmiş bu yarış Ümummilli Lider Heydər Əliyev irsinin geniş təbliği, gənclərin vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyəsi və asudə vaxtlarının səmərəli təşkili xarakterini daşıyıb.

Gözlənildiyi kimi, yarış olduqca gərgin və maraqlı olub. Yekun nəticəyə görə, Rüstəm Həsənov I yeri, Rəşvin Abasov II yeri, Əvəz İsgəndərov III yeri tutmuşlar.

Fərqlənmiş idmançılara Xızı Rayon Gənclər və İdman İdarəsinin diplomları təqdim olunmuşdur.



*"XIZI", R.M.*

Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89; (070) 831-95-96
Whatsapp: (050) 965-88-89; (070) 831-95-96
Elektron ünvan: xizi.r.m@mail.ru



Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
VÖEN: 7800023401
H/h: 33080019442400230124

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

Tiraj: 300
Sifariş: 182
Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28